

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 106 (23.017)

*6 iyun 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Goranboy rayonuna səfəri çərçivəsində Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout avtomobil yolunun, "Region Agropark"ın, hər biri 40 meqavolt amper gücündə olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq 2x40 MVA gücündə "Dəliməmmədli" yarımstansiyasının, Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin, Bayraq Muzeyinin, həmçinin Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışında iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 5-də Naftalan şəhərinə səfərə gəlib.

Prezident İlham Əliyev iyunun 5-də Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılışında iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 4 iyun tarixli Sərəncamı ilə su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir.

Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları da vardır.

**Quliyev Nəriman Qəhrəman oğlu**

**Mərdəliyev Qabil Bayram oğlu**

**Orucov İsmayıl Süleyman oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## "Sosial Şəbəkə Akademiyası" adlı layihənin təqdimatı olub



*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyində partiyanın Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyi tərəfindən "Sosial Şəbəkə Akademiyası" adlı layihənin təqdimatı olub.*

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin sədri Cəbi Quliyev tədbiri giriş sözü ilə açaraq müasir dövrümüzdə sosial şəbəkələrin vacibliyindən, onların ictimaiyyətə, cəmiyyətə və xüsusilə gənclərə təsirindən, sosial şəbəkələrdən düzgün istifadə etmə vərdişlərinin formalaşdırılmasının əhəmiyyətindən söz açıb.

"Sosial Şəbəkə Akademiyası" layihəsi haqqında geniş məlumat verən Cəbi Quliyev bildirib ki, bu layihə çərçivəsində gənclərə sosial şəbəkələrin müsbət tərəfləri aşılanmaqla yanaşı, həm də Naxçıvanın burada təqdim edilməsi ilə bağlı müvafiq işlər aparılacaqdır. *https://az.wikipedia.org* virtual ensiklopediya saytına məlumatların yüklənməsi və daxil olan məlumatların yenilənməsi üçün "Sosial Şəbəkə Akademiyası" nəzdində keçirilən təlim də bu məqsədə xidmət edir.

Sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin üzvü Elvin Əliyev sayt barədə məlumat verib, sayta məlumatların daxil olunması, yenilənməsi qaydalarını izah edib. Təlimin sonunda Naxçıvan şəhərində yerləşən əvvəlcədən müəyyən edilmiş yerlər haqqında məlumatlar iştirakçılar tərəfindən sayta daxil edilib.

Qeyd edək ki, təlimdə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyinin 45 üzvü iştirak edib.

"Sosial Şəbəkə Akademiyası" nəzdində belə təlimlər bundan sonra da davam etdiriləcəkdir.

**Tural AĞAYEV**

## Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri Türkiyə-Azərbaycan birgə təlimində yüksək nəticələr əldə ediblər



Qardaş ölkənin Qars şəhərində keçirilmiş Türkiyə-Azərbaycan genişmiqyaslı birgə taktiki təlimində iştirak edən Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti və zirehli texnikası Naxçıvandakı daimi dislokasiya məntəqəsinə qayıdıb.

"Türkiyə-Azərbaycan döyüş atışlı birgə tabor tapşırıq qüvvəsi təlimi"ndə Azərbaycan və Türkiyə Silahlı qüvvələrinin şəxsi heyətləri arasında əməliyyatların birgə icra edilməsində uzlaşmış fəaliyyətə nail olunub və müxtəlif döyüş tapşırıqları praktik icra edilib. Təlimdə Əlahiddə Ümumqoşun Ordudan cəlb edilmiş bölmələr bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirərək yüksək nəticələr göstəriblər.

Birgə taktiki təlimin sonunda "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.

Tədbirdə Türkiyə Silahlı Qüvvələrinin 3-cü Ordusunun komandanı, ordu generalı İsmail Serdar Savaşın və Azərbaycan müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordunun komandanı, general-leytenant Kərəm Mustafayevin rəhbərlik etdikləri nümayəndə heyətləri iştirak ediblər.

**Nəriman NƏCƏFOV**

## Maarifləndirici təlimlər başlayıb

*İdarə, müəssisə və təşkilatlarda çalışan mühasiblərin iştirakı ilə "Büdcə təşkilatlarında vergi uçotu" mövzusunda maarifləndirici tədbir ilk olaraq Naxçıvan Şəhər Vergilər İdarəsində keçirilib.*



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov açıb. Bildirib ki, büdcə təşkilatlarında mühasibatlıq sahəsində çalışan şəxslər üçün vergi bəyannamələrinin, hesabatların, ərizə, arayış və digər sənədlərin tərtib edilməsi və göndərilməsi, vergilərin hesablanması üzrə praktik vərdişlərin daha da artırılması, bilik və bacarıqların təkmilləşdirilməsinə xidmət edən bu təlimin muxtar respublikanın bütün rayonlarında keçirilməsi nəzərdə tutulub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi aparatının rəhbəri Əli Şabanov vergi uçotu və mühasibat uçotunun oxşar və fərqli xüsusiyyətləri, nazirliyin Vergi ödəyicilərinə xidmət şöbəsinin böyük dövlət vergi müfəttişi Elçin Babayev "Büdcə təşkilatlarında vergi uçotu" bəyannamə tərtibatı proqramı barədə tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

Bildirilib ki, son illər vergi siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi istiqamətində aparılan işlər ölkənin maliyyə resurslarının səfərbər edilməsini, dövlət büdcəsinin parametrlərinin köklü dərəcədə yaxşılaşmasını təmin edib. Buna uyğun olaraq Azərbaycan Respublikasında Vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə 2005-2007-ci illəri əhatə edən Dövlət Proqramı qəbul olunub. Həmin proqramın icrası istiqamətində bir sıra tədbirlər həyata keçirilib, vergilər sahəsində xeyli irəliləyişlərə nail olunub.

Qeyd edilib ki, Azərbaycan Respublikasında vergi sisteminin təkmilləşdirilməsi istiqamətində 2013-2020-ci illəri əhatə edəcək tədbirlər planı qəbul olunub, bu plana uyğun olaraq elektron auditin tətbiqinə başlanılıb, ASAN imzanın tətbiqinə keçid reallaşdırılıb, transfer qiymətı və bunun kimi innovativ məsələlər öz aktuallığını qazanıb.

Diqqətə çatdırılıb ki, vergi sahəsində son dövrlərdə aparılan islahatların əsas məqsədi vergi xidmətinin bütün sahələrində uğura nail olmaq, bununla da vergi ödəyicilərini daha şəffaf, müasir standartlara cavab verən vergi xidməti ilə təmin etməkdən ibarətdir.

Tədbirdə təlim iştirakçılarının sualları cavablandırılıb, onlara "Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsinin doldurulması qaydası" adlı izahat vərəqələri paylanılıb.

**Nail ƏSGƏROV**

## Yeni istehsal sahələri yaradılır

Muxtar respublikada sahibkarlığın inkişafı ilə bağlı qarşıya qoyulmuş məsələlər uğurla həll olunur. Belə ki, hər il Naxçıvanda yeni istehsal sahələri fəaliyyətə başlayır, daxili bazar yerli məhsullarla təmin olunur, iş yerləri açılır. Özəl sektorun hərtərəfli dəstəklənməsi, yaradılan əlverişli sahibkarlıq mühiti Babək rayonunda da yeni emal müəssisələrinin yaradılmasına stimul verir. Dövlətin sahibkara dəstək verməsi iqtisadiyyatın dinamik inkişafına, eləcə də əhali gəlirlərinin artımına müsbət təsir göstərib. Digər tərəfdən, muxtar respublikanın uğurlu inkişaf modeli xarici investorların da bura vəsait qoymasına şərait yaradıb.

Babək rayonunun Araz kəndində tullantı yağlarının yenidən emalı, bərk sürtkü yağlarının istehsalı sahəsi və quşçuluq təsərrüfatının fəaliyyətə başlaması istiqamətində görülən işlər də muxtar respublikanın bölgələrində sahibkarlığın uğurla inkişaf etdirilməsinin bariz nümunəsidir. Bərk sürtkü yağları istehsal olunacaq müəssisədə hazırda xaricdən gətirilən dəzgahların qurulması prosesi başa çatmaq üzrədir. İstifadə müddətini başa vurmuş yağlar burada təkrar emal olunaraq bazara çıxarılacaq. İstehsal ediləcək məhsulların daxili bazarla yanaşı, qardaş Türkiyə Respublikasında da satışı nəzərdə tutulur. Burada yeni iş yerləri yaradılacaq və gələcəkdə müəssisəsinin ixrac imkanları genişləndiriləcəkdir.

Həmin ərazidə sahibkar Zəka Mirzəyevə məxsus yeni quşçuluq təsərrüfatı da fəaliyyətə başlayacaq. 800 kvadratmetr ərazini əhatə edən istehsal sahəsinə 20 min quş gətiriləcək. Burada dərman və dən deposu, eləcə də işçilər üçün otaqlar ayrılıb. Müəssisədə işıq, su və havalandırma sistemlərinin çəkilişi başa çatdırılıb. Müsahibim deyir ki, bu gün Babək rayonunda bir neçə kənddə quşçuluq təsərrüfatları fəaliyyət göstərir. Biz də daxili tələbatı ödəmək və xaricə valyuta axınının qarşısını almaq məqsədilə yeni istehsal sahəsi yaratmışıq. Gələcəkdə müasir texnologiyaların imkanlarından da istifadə etməklə məhsul istehsalına başlayacağıq.

Ümid edirik ki, hər iki emal sahəsi keyfiyyətli məhsulları ilə həm Naxçıvan, həm də ölkə səviyyəsində tanınacaq, Babək rayonunun, eləcə də muxtar respublikanın iqtisadi inkişafına öz töhfəsini verəcəkdir.

**Muxtar RZAZADƏ**

Müasirləşən kəndlərimiz

# Yeni görkəmi, füsunkar təbiəti ilə gözoxşayan AĞBULAQ

***Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq qədim diyarımıza yeni ab-havanın qədəm qoyduğunu o dövrü yaşayanlar yaxşı xatırlayırlar. Bu ab-havada diqqətçəkən məqamlardan biri muxtar respublikada tikinti-quruculuq işlərinə start verilməsi idi. İlk vaxtlarda ayrı-ayrı yaşayış məntəqələrində daha vacib olan tikintilərə başlanıldı. Bir qədər sonra isə inşaat işləri kompleks quruculuq tədbirləri ilə davam etdirildi və bu proses bu gün muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilib.***





O da xüsusi vurğulanmalıdır ki, belə tədbirlərə ilk olaraq ucqar dağ və sərhəd yaşayış məntəqələrindən başlanılması insanlar tərəfindən yüksək dəyərləndirilirdi. Getdikcə quruculuq tədbirlərinin həm istiqaməti, həm də həcmi genişləndirilir, yurd yerlərimizin müasirliyə qovuşması üçün böyük fədakarlıqlar göstərilirdi. Muxtar respublikamızın ən ucqar yaşayış məntəqələrindən biri olan Şahbuz rayonunun Ağbulaq kəndinin sakinləri də bir gün yuxudan durub doğma yurd yerlərində texnikaların səsini eşitdilər, kəndə qurub-yaratmağa gələn insanlarla görüşdülər, sakinlərin bir çoxu da onlara qoşuldu. Yaşayış məntəqəsində kompleks quruculuq tədbirlərinə başlanılması kəndə əsl bayram sevinci gətirdi.

... Etiraf edim ki, rayonun belə yaşayış məntəqələrinin çoxunda olmuşam. Ancaq onlardan hansına üstünlük vermək barədə düşünəndə seçim qarşısında qalıram. Ulu Tanrının bu ünvanlara bəxş etdiyi təbii gözəlliklər insan qəlbinə bir təravət bəxş edir. Çoxlarına inanılmaz görünə bilər: göylərə boyverən dağların başından qar əriməmiş yamacları qırmızı lalələrlə dolu olur. Uzaqdan baxanda deyirsən, bəlkə, dağ yamacına xalı səriblər... Bu təbii gözəlliklərə insan zəkasının qüdrəti və doğma yurd yerinə cavabdehlik hissilə 2013-cü ilin dekabr ayında yeni gözəlliklər əlavə olundu. Quruculuq tədbirləri çərçivəsində yollar müasir standartlar səviyyəsində işləndi. Bu, yadımıza "Mədəniyyət yoldan başlayır" deyimini salır və istər-istəməz onu da düşünürsən ki, bu ucqar kəndə dağ ətəklərindən və yamaclardan keçən belə yollar çəkilməsi böyük zəhmət və vəsait tələb edir. Ancaq insan amilinin öndə dayandığı muxtar respublikamızda bu çətinliklər çoxdan dəf edilib. Bunun ifadəsidir ki, bəhs olunan dövrdə Ağbulaqda yeni məktəb binası, xidmət və kənd mərkəzləri, Ağbulaq İstirahət Mərkəzi istifadəyə verilib. Üç mərtəbədən ibarət olan 120 şagird yerlik məktəb binasında tədrisin səmərəli təşkili üçün lazımi şərait yaradılıb. Burada 31 şagird təhsil alır. Məktəbdə müasir sinif otaqları, fənn kabinələri, kitabxana, kompüter sinfi, hərbi kabinə, fənn laboratoriyaları, elektron lövhəli siniflər müəllim və şagirdlərin istifadəsinə verilib.





Tədris olunan humanitar və dəqiq elmlər arasında əlaqələrin təmin edilməsi, keçilən dərslərin məzmununun təkmilləşdirilməsi, interaktiv təlim üsullarının tətbiq olunması, elektron dərsliklərdən geniş istifadə edilməsi tədrisin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Məktəbin idman zalında mini-futbol, basketbol və idmanın digər növləri ilə məşğul olmaq üçün hər cür şərait yaradılıb, həyətdə açıq idman qurğuları quraşdırılıb.

Məktəbin direktoru, astronomiya üzrə fəlsəfə doktoru Mirhəsən Tahirov deyir ki, indiyə qədər Ağbulaq kəndində məktəb adına tikilmiş bina olmayıb. Dərslər uyğunlaşdırılmış binada keçirilib.

Mirhəsən müəllim diqqətimizə çatdırır ki, məktəbdə şagirdlərin vətənpərvərlik tərbiyəsi, dövlətçiliyimizə və müstəqilliyimizə sədaqət ruhunda formalaşdırılması böyük önəm verilən məsələlərdən biridir. Bu gün Ağbulaq məktəbi bu təhsil ocağının məzunu olmuş şəhid Afət Hüseynovun adını daşıyır. Onun keçdiyi şərəfli və qısa ömür yolu bugünkü Ağbulaq məktəbliləri üçün bir örnəkdir. Onu da qeyd edək ki, 110 təsərrüfatdan ibarət olan bu kənddə elmə, təhsilə həmişə yüksək önəm verilib. Bunun bariz ifadəsidir ki, kənd tam orta məktəbini bitirmiş Əyyub Quliyev AMEA-nın müxbir üzvüdür, Hicran Tahirova coğrafiya, Rasim Hüseynov filologiya elmləri üzrə fəlsəfə doktorlarıdır. Bu gün Ağbulaq məktəbi belə məzunları ilə fəxr edir, pedaqoji kollektiv onların ardıcıllarının yetişdirilməsi üçün yaradılmış şəraitdən maksimum bəhrələnməyə çalışır.

Məktəblə bir sırada bu yaşayış məntəqəsinə yaraşıq verən kənd və xidmət mərkəzləri tikilib. Bu ünvanlara da baş çəkirik. Öyrənirik ki, kənd mərkəzində rabitə evi, Ağbulaq və Gömür kəndlərini əhatə edən polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyasının ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi, arxiv və zal yerləşir. Rabitə evində quraşdırılan avtomat telefon stansiyası abonentlərə yüksək səviyyədə xidmət göstərir. Burada poçt bölməsi də yaradılıb, əhaliyə dayanıqlı rabitə xidmətini təmin etmək üçün digər zəruri tədbirlər həyata keçirilib, "Naxtel"in baza stansiyası quraşdırılıb. Kənd mərkəzinin birinci mərtəbəsində feldşer-mama məntəqəsi yerləşir. Üç iş otağı ayrılmış məntəqədə müasir iş şəraiti yaradılıb.

Xidmət mərkəzində bərbərxana, gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları kənd sakinlərinin istifadəsindədir. Mağazalarda muxtar respublikada istehsal olunmuş yerli məhsulların satışına üstünlük verilir.

Onu da əlavə edək ki, Ağbulaq kəndinə fiber-optik kabel çəkilib, genişzolaqlı internetdən və digər rabitə xidmətlərindən istifadə imkanı yaradılıb.

İndi isə yolumuz Ağbulaq İstirahət Mərkəzinədir. Bu mərkəz muxtar respublikamızda turizmin bir çox növlərinin inkişafına göstərilən dövlət qayğısının bariz ifadəsidir. Məlumat üçün bildirək ki, 3 yaşayış korpusundan və 1 yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq mövcuddur. Kompleksin ərazisinə 2 kilometr məsafədən içməli su xətti çəkilib, həyətdə futbol meydançası yaradılıb, uşaq əyləncə qurğuları quraşdırılıb.

...Ötən günlərin birində eşitdik ki, yüksək turizm potensialına malik olan bu yaşayış məntəqəsində yenidənqurma işlərinə başlanılıb. Üz tutduq Ağbulağa.

Rayon mərkəzindən bizə yol yoldaşlığı edən kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mətləb Məmmədovun kəndin tarixi barədə söhbəti elə maraqlı oldu ki, yaşayış məntəqəsinə nə vaxt çatdığımızın fərqinə varmadıq: Ağbulağın qədim tarixi var. Bu tarixi sübut edən faktlar çoxdur. Məsələn, ərazidə 1990-cı ildə Antik dövrə aid yaşayış yeri qeydə alınıb. Buradan gil qab qırıqları, iki küp və sümük qalıqları əldə olunub. Tapıntılara əsasən abidənin eramızdan əvvəl I və eramızın I-II əsrlərinə aid olması ehtimal edilir.

Ağbulaq nekropolu da Antik dövrə aid arxeoloji abidədir. İri küplərdən ibarət olan qəbirlər dağılmış, iri küp qırıqları ətrafa səpələnmiş şəkildə tapılıb. Qazıntılar zamanı iki qəbir tədqiq edilib. Qəbirlərdə əqiq və şüşə muncuqlar, gil qab qırıqları və sair aşkar edilib.

Mətləb Məmmədovun bu məlumatları kəndin qədim tarixi haqqında ilk bilgilərimiz olur. Adətləri ilə maraqlanırıq. Həmsöhbətim deyir ki, bu barədə kəndin yaşlı sakinlərindən biri olan Əhruz anadan daha ətraflı məlumat almaq olar. Evləri də uzaqda deyil. İcra nümayəndəsi ilə üz tuturuq Əhruz anagilə. Yolboyu diqqətimi çəkən kəndin təmizliyi olur. İcra nümayəndəsi deyir ki, rayonun kənd yaşayış məntəqələrinin təmiz saxlanılması ilə bağlı aparılan reydlərin nəticələrinə görə iki il əvvəl Ağbulaq kəndi birinci yerə çıxıb. Kənd adamları öz yurd yerlərini təmiz saxlamağı sevirlər. Necə deyərlər, kəndimiz öz evimiz, öz həyətimizdir. Onu təmiz saxlamaq hər birimizin borcudur. Həm də təmizlik imandan gəlir, təmizlik sağlamlıqdır...

Budur, Əhruz anagilin qapısına çatırıq. Həyətə keçirik. Təmiz, səliqəli, yaşıllığa bürünmüş kənd evi. Meyvə ağaclarında nubar məhsullar gözə dəyir. Əhruz ana bizi çoxdanın tanışı kimi səmimiyyətlə qarşılayır. Burada kənd adamlarına məxsus qonaqpərvərlik görürük. Düşünürəm ki, bu, kənddə milli-mənəvi dəyərlərin qorunmasının bir göstəricisidir. Mətləb müəllim gəlişimizin məqsədini bildirir. El ağbirçəyinin üzünə təbəssüm qonur. Evdəkilərə səslənərək çay hazırlamağı tapşırır, söhbətə başlayır. Deyir ki, bu kəndin sakinləri qədim adət-ənənələri saxlamağı bacarırlar. Çünki kənddə ağsaqqal nəsihəti, ağbirçək məsləhəti yazılmamış qanundur. Adətlərimizin qorunmasında onlar öndə gedirlər. Ondan indi də əməl edilən toy adətlərimiz barədə soruşuruq: "İvit yığma" adəti indi də toylarımızın bəzəyidir. Bu mərasim qız evində icra olunur. Qohum-əqraba yeni ailə quran gəlinə öz imkanları dairəsində hədiyyələr gətirirlər. Kimisi şirniyyat, kimisi parça qismi, kimisi ətriyyat, kimisi qab-qacaq hədiyyə edir. Hədiyyələr bir nəfər tərəfindən toy həyətində musiqi sədaları altında elan olunur. Musiqinin səsi isə Üçqardaş, Papaqlı, Şiştəpə dağlarını lərzəyə salır. Əhruz ana onu da əlavə edir ki, neçə illər əvvəl bu adətə muxtar respublikanın bir neçə kəndində rast gəlib. Təəssüf ki, indi həmin adət unudulub.

O, mətbəximiz barədə də danışaraq bildirir ki, süfrələrimiz həmişə milli yeməklərlə zəngin olub. Ancaq hər şey qədərində. Sonra əlavə edir: – Əgər Ağbulaqda Qızlar bulağı, Qoşabulaq, Salvartı bulağı, Soyuqbulaq kimi təbii, suyu dişgöynədən bulaqlar, Ağbulaq və Şəfa kimi müalicəvi bulaqlar varsa, onda nə üçün ağbulaqlı öz ailə büdcəsindən kəsib toy mərasiminə insan orqanizminə heç bir xeyir verməyən, başqa ölkədən gətirilən su almalıdır? Heç bir ağbulaqlı öz xeyir və şər məclisində başqa yerdən ət almaz. Buna ehtiyac yoxdur. Çünki hər bir kənd adamının qapısından hər gün örüşə onlarla iribuynuzlu və xırdabuynuzlu heyvan çıxır. Kənd sakinləri toyuq-cücəsinin heç sayını bilmir. Kəndin təmiz havası və suyu ekoloji sağlam ət məhsullarının istehsalında başlıca amildir. Ağbulağın balının ətri uzaqdan adamı bihuş edir. Kənddə 300-dən artıq arı ailəsi saxlanılır. Camaat həm də meyvəçiliklə məşğul olur. Hər bir həyətdə növ-növ ərik, alma, qoz, alça, gavalı yetişdirilir. Kənddə, ümumilikdə, 11 hektar meyvə bağı var.

Kənddə aparılan yenidənqurma işləri ilə tanış oluruq. Evlərin çardaq hissələri yeniləşdirilir, həyət hasarları təmir olunur, heyvandarlığın inkişafı məqsədilə zəruri tikinti tədbirləri həyata keçirilir. Belə tədbirlərdə inşaatçılarla yanaşı, kənd sakinləri də yaxından iştirak edirlər. Çünki görülən bütün bu işlərin onların yaxşı yaşaması, Ağbulağın daha da gözəlləşməsi, bir turizm məkanı kimi buraya gələnlərdə daha xoş təəssüratlar yaradılması üçün olduğunu dərindən dərk edirlər. Dövlətimizin onlara göstərdiyi növbəti qayğıdan da razılıqla danışırlar.

Kənddə olduğumuz qısa müddətdə Ağbulaq bizdə zəngin təəssüratlar yaratdı. Bir vaxtlar ucqar dağ kəndlərinin belə mənzərəsini xəyalımıza da gətirə bilməzdik. Ancaq bu da var ki, insan amili öndə duran yerdə xəyallar da həqiqətə çevrilə bilər. Bu həqiqəti muxtar respublikamızın istənilən bölgəsində görmək mümkündür. Bizim gördüyümüz Ağbulaq kimi.

Bir azdan bu gözəl yaşayış məntəqəsi yenidən qapılarını öz qonaqlarının üzünə açacaq. Buraya gələnlər isə doğma diyarımızın ən ucqar yaşayış məntəqələrinin müasirliyə qovuşduğunu görəcək, təəccüblərini gizlətməyəcəklər.

**Muxtar MƏMMƏDOV**

## Seminar-müşavirə keçirilib

Şərur Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşlarının iştirakı ilə "Kənd təsərrüfatı bitkilərinin xəstəlik, zərərverici və alaq otlarına qarşı mübarizə üsulları, yeni becərmə texnologiyalarının tətbiqi" mövzusunda seminar-müşavirə keçirilib. Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyətinin baş məsləhətçisi Həsən Əmirahov açıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Baş direktoru Bəhruz Bayramovun, nazirliyin Fitosanitar nəzarəti, bitkilərin mühafizəsi və karantini şöbəsinin müdiri Əsgər Həsənovun, Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi İntiqam Hüseynbəylinin kənd təsərrüfatında əkilib-becərilən bitkilərin zərərverici və xəstəliklərinə qarşı kompleks mübarizə tədbirlərinin aparılması istiqamətində çıxışları olub. Çıxışlarda Şərur rayonunun muxtar respublikada meyvə və bostan bitkilərinin əkilib-becərilməsində, əhalinin bu məhsullara olan tələbatının ödənilməsində mühüm yeri olduğu vurğulanıb.

Tədbirin sonunda sahibkarlar tərəfindən verilən suallar cavablandırılıb. Zərərverici və alaq otlarına qarşı mübarizə aparılması üçün dərman preparatları verilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

*Müasir turizmin inkişaf istiqamətlərinə nəzər yetirdikdə daha çox turistin uzun müddətə səyahətlərə cəlb edilməsi üçün mövcud olan resursların qiymətləndirilməsi və bunun əsasında turların təşkili məsələləri diqqəti cəlb edir. Özünün rəngarəng turizm ehtiyatları ilə seçilən Naxçıvan Muxtar Respublikasında da belə resurslardan istifadə etməklə turizm potensialının yaradılması bu baxımdan qarşıda duran vəzifələrdəndir. Məsələyə müasir turistlərin ən çox seçim etdikləri müalicə-rekreasiya məzmunlu səyahətlər aspektindən yanaşdıqda Naxçıvanın müalicə turizmi imkanları haqqında daha çox danışmaq mümkündür.*

*Turizm*

## Naxçıvanda geniş müalicə turizm potensialı vardır



Sağlamlığın qorunması hər bir şəxsin əsas qayğılarındandır. Bunun üçün təbii ehtiyatlardan istifadə olunması hələ qədim dövrlərdən geniş yayılıb. Müasir dünyada isə müalicə-sağlamlıq turizmi bu baxımdan dünyada sürətlə inkişaf edərək bütün turizm dövriyyəsinin, təqribən, 14 faizlik bir həcminə çatıb. Bu isə müalicə turizminin əhəmiyyəti və yerinə yetirdiyi humanitar funksiyalarla izah olunur. Müalicə turizmi xidmətlərinin yerinə yetirildiyi mühüm məkanlar kimi sanatoriya-kurort müəssisələrinin yaradılması da təbii ehtiyatlardan istifadə əsasında müxtəlif xəstəliklərin profilaktikası, müalicəsi və reabilitasiyası üzrə mühüm əhəmiyyət daşıyır. Qeyd edək ki, bu həm də təbii rekreasiya ehtiyatlarından rasional istifadəni şərtləndirən və əhali məşğulluğuna da şərait yaradan bir iqtisadiyyat sahəsidir.

Müasir dövrdə bu sahənin daha da inkişaf etdirilməsi dövlətin diqqət mərkəzindədir. Ölkəmizin sanatoriya-kurort ehtiyatlarından səmərəli istifadə etməklə əhalinin sağlamlığının qorunmasını əsas məqsəd kimi qarşıya qoyub. Belə ki, Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramında da qeyd olunduğu kimi kurort işi Azərbaycan Respublikasında dövlətin sosial-iqtisadi siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Uzun illər ərzində bu sahədə aparılmış dövlət siyasəti nəticəsində inkişaf etmiş və kütləvi tələbatı ödəyən kurort kompleksi yaradılıb.

Müalicə turizmi öz məzmununa görə sosial turizm kateqoriyasına aiddir. Başqa sözlə, insanlar müalicə-sağlamlıq üçün vaxtdan və vəsaitdən məcburi olaraq istifadə etdiklərindən, xüsusən müəyyən kateqoriyadan olan insanlara bu təklif bəzi güzəştlərlə edilir. Qeyd olunmalıdır ki, bu müddəa Ümumdünya Turizm Təşkilatının da tövsiyələrində mövcud olub, dövlətlərə və turizm təşkilatçılarına insanların sağlamlığı naminə zəruri turizm xidmətlərinin güzəştli qiymətlərlə təklif edilməsini nəzərdə tutur. Məhz bu prinsiplər muxtar respublikamızda həyata keçirilən müalicə turizmi üzrə işlərin əsas məzmununu təşkil edir. Naxçıvan Muxtar Respublikasında bu sahə üzrə infrastrukturun yaradılmasını, onun müasir standartlar səviyyəsinə uyğun olaraq yenilənməsini, əhalinin məşğulluğunu, ümumilikdə, digər xidmət sahələrinin də inkişafını təmin edib.

Naxçıvanda müalicə turizminin təşkili üçün mövcud olan mineral, su və iqlim ehtiyatları arasında Duzdağ Fizioterapiya Mərkəzinin, Darıdağ Arsenli Su Müalicəxanasının və Ağbulaq İstirahət Mərkəzinin imkanları hesabına təşkil olunan belə müalicə turizmi xidmətləri bu baxımdan regionun ümumi turizm potensialının mühüm bir hissəsini təşkil edir.

Son illər Duzdağ Fizioterapiya Mərkəzi hər il orta hesabla 3500-4000 arasında pasiyent qəbul edir. 1979-cu ildə istifadəyə verilən mərkəzdə ilk vaxtlarda lazımi şərait olmadığından mövcud tələbatı yetərincə qarşılamaq qeyri-mümkün idi. 2008-ci ildən burada pasiyentlər, tibbi və digər personal üçün yaradılmış müasir şərait bu gün müalicə turizmi üçün çox əlverişli imkanlar açmışdır. Mərkəzdə ölkəmizin dənizsahili və rütubətli bölgələri olan Bakı və Sumqayıt şəhərləri ilə yanaşı, Quba, Qusar, Qəbələ, Şəmkir, Goranboy, Bərdə, Yevlax, habelə Lənkəran və Masallıdan, o cümlədən Türkiyə, Gürcüstan, Ukrayna, İran, Rusiya, Tacikistan, Qazaxıstan, Almaniya, Hollandiya, Avstriya, İngiltərə kimi xarici ölkələrdən gələn insanlar yuxarı tənəffüs yolları xəstəliyinin müalicəsi üçün əlverişli imkan tapırlar. Eyni zamanda Duzdağın və Naxçıvan şəhərinin qədim tarixi, burada yaradılmış Duz Muzeyi də tanışlıq məqsədilə gələn turistlər üçün çox gözəl fürsət deməkdir.

Duzdağda müalicə olunmaq istəyən insanların artan tələbatının ödənilməsi üçün ötən ilin dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı Sərəncamla Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Duzdağ Fizioterapiya Mərkəzinə publik hüquqi şəxs statusu verilib. Bu statusla mərkəz gələcəkdə insanların sağlamlığının bərpa olunması sahəsində daha da səmərəli fəaliyyət göstərəcək.

Naxçıvan Muxtar Respublikasında müxtəlif kimyəvi tərkibə və temperatura malik 250-dək mineral su mənbəyi vardır. Bu bulaqlardan gün ərzində 24 milyon litr su axır. Naxçıvan mineral sularının müalicə əhəmiyyəti hələ lap qədim zamanlardan məlumdur. Əhali bu sulardan keçmişdə də müalicə olunmaq üçün istifadə edib.

Culfa rayonu ərazisindəki Darıdağ suyundan hələ qədim zamanlardan sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən "duzlaşma" adlanan xəstəliklərin müalicəsində geniş istifadə olunub. 1978-ci ildən fəaliyyətə başlayan Darıdağ Arsenli Su Müalicəxanası 2005-ci ildə müasir tələblərə uyğun yenidən qurularaq istifadəyə verilib. Burada xəstələrin müayinəsi, müalicəsi və istirahəti üçün hərtərəfli şərait yaradılıb. Naxçıvan-Ordubad magistralından bu şəfa qaynağınadək olan avtomobil yolu asfaltlanaraq yenidən qurulub. 2017-ci ilin oktyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Darıdağ Arsenli Su Müalicəxanasının yenidən təşkil edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən həmin müalicəxanaya publik hüquqi şəxs statusu verilib. Bu da, şübhəsiz, əhalinin belə bir vacib kurort-sağlamlıq müəssisəsinin xidmətlərindən daha yaxşı istifadə etməsi üçün geniş imkanlar açır.

Sağlamlığın bərpa olunması üçün münasib iqlimdən istifadə keçmişdə olduğu kimi, müasir dövrdə də aktualdır. Belə ki, kurort məqsədilə istifadə olunan iqlim mənbələri bütün əhali üçün ilboyu istirahətin ən sərfəli mənbəyidir. Bundan əlavə, təbiətin gözəlliklərini seyr etməklə yaranan estetik zövq də güclü bir şəfa dəyərinə malikdir və insanın psixoloji vəziyyətində toplanmış neqativ enerjinin aradan qalxmasına kömək edir. Bu mənada, 2013-cü ilin iyul ayında istifadəyə verilmiş Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzi Naxçıvanda dağ-iqlim kurortu məkanı kimi qısa müddətdə tanınıb. Gözəl mənzərələri və iqlim xüsusiyyətləri olan Ağbulaq İstirahət Mərkəzinin tarixi çox olmasa da, bura, xüsusən sosial turizm layihələrinin həyata keçirildiyi mühüm məkan adını qazanıb. Belə ki, yaradıldığı dövrdən yüzlərlə uşaq və gənc burada pulsuz olaraq istirahət edib. Onlar arasında fiziki imkanları məhdud insanlar, əlaçı tələbə və şagirdlər, habelə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni həyatında fəal olanlar üstünlük təşkil edir. İstirahət mərkəzindəki kampların təkcə yazda və yayda deyil, ilin bütün fəsillərində təşkili diqqəti cəlb edir. Bundan başqa, Ağbulaqda ailəliklə qalıb istirahət edənlərin də sayı ilbəil çoxalır. Xüsusən isti yay günlərində buraya olan tələb daha da artır.

*Naxçıvanda müalicə turizmi üçün geniş potensial vardır. Yeni dövrdə qədim diyarımızda müalicə turizminin təşkili və idarəolunması məsələlərinin həlli bu sahənin inkişafı üçün əsas şərtlərdəndir. Bu sahədə bazar iqtisadiyyatı şərtləri əsasında da işin təşkil olunması zərurəti yaranıb. Bu isə mütərəqqi menecmentin tətbiqini, muxtar respublikanın bütün resurslarından səmərəli istifadəni özündə ehtiva edir.*

**Əli CABBAROV**







## Gənclər və İdman Nazirliyinin yeni saytı fəaliyyətə başlayıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi fəaliyyətinin təkmilləşdirilməsi, gənclər və idman sahəsində həyata keçirilən tədbirlərin daha geniş işıqlandırılması məqsədilə yeni *www.naxgin.az* saytı yaradılıb.

Oxucular müasir dizaynda yaradılan və 8 bölmədən ibarət olan (baş səhifə, nazirlik, tədbirlər, mətbuat xidməti, gənclər siyasəti, idman siyasəti, qalereya və bizimlə əlaqə) saytda muxtar respublikada keçirilən tədbirlər, turnirlər, yarışlar barədə ətraflı məlumat əldə edə, idman və gənclər sahəsi ilə bağlı bütün suallara cavab tapa biləcəklər.

Saytda, eyni zamanda şəhər və rayonlarda fəaliyyət göstərən Gənclər və İdman İdarələri, nazirliyin tabe təşkilatları barədə də məlumatlar yerləşdirilib. Buradan onların sosial şəbəkələrdəki rəsmi səhifələrinə birbaşa keçid etmək mümkündür.

Sayt vacib mövzularla bağlı oxucuların suallarını cavablandıracaq, bu sahədə araşdırma, təhlillər aparılacaq. Burada bir yenilik isə muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları ilə bağlıdır. Belə ki, nazirliyin rəsmi saytında federasiyaların sayt linkləri adları ilə qeyd olunub və bura daxil olmaqla, istənilən idman federasiyasının fəaliyyəti barədə məlumat toplamaq mümkündür. Saytın üst hissəsində isə nazirliyin sosial şəbəkələrdəki səhifələri yer alıb.

Gənclər və İdman Nazirliyi bu saytı yaratmaqla, həm də bir yeniliyə imza atıb. Belə ki, nazirliyin keçirəcəyi muxtar respublika, ölkədaxili və beynəlxalq turnirlər sayt vasitəsilə canlı yayımlanacaq.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## "Maliyyə-iqtisad terminlər lüğəti" işıq üzü görüb




Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin təşəbbüsü ilə nazirliyin Dövlət aparatının və hüquq-mühafizə orqanlarının maliyyəsi şöbəsinin baş məsləhətçisi Xəlil Vəlizadə, Milli iqtisadiyyatın maliyyəsi şöbəsinin aparıcı məsləhətçisi Qənbər Xudiyev və Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi İlhamə Məmmədovanın birgə hazırladıqları "Maliyyə-iqtisad terminlər lüğəti" nəşr edilib.

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 10 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi yaradılıb. Mərkəz peşə hazırlığının təkmilləşdirilməsini, ixtisasların artırılmasını, təhsilin yekunlarına görə dinləyicilərin peşəkar biliklərinin və işgüzar keyfiyyətlərinin qiymətləndirilməsini və digər tədbirləri həyata keçirir.

Mərkəzin Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərindən biri də tədris plan və proqramlarının, elmi-metodik material və tədris vəsaitlərinin nəşr etdirilməsidir.

Belə nəşrlərdən olan yeni lüğətdə ölkədaxili maliyyə-iqtisad sistemində və beynəlxalq maliyyə əlaqələrində rast gələnən maliyyə-iqtisad terminlərinin ingilis dilində qarşılığının verilməsi ölkədə maliyyə-iqtisad sahəsində vahid terminoloji mühitin yaradılmasına yardım edəcəkdir.

Geniş oxucu kütləsinə təqdim olunan, 2700 söz və söz birləşməsini özündə əks etdirən bu lüğət iqtisadçılar, müvafiq sahədə çalışan alimlər, müəllimlər, tələbələr, maliyyə sisteminin inkişafında maraqlı olan bütün oxucu kütləsi, eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün çox faydalı mənbə rolunu oynayır. Lüğətdə qanunvericilikdə işlənən və iqtisad elminin bütün sahələrini əks etdirən söz və terminlərin, ifadələrin əksəriyyəti, həmçinin bir sıra iqtisadi təşkilatların adlı siyahısı, dünya ölkələrinin pul vahidlərini əks etdirən cədvəllər və onların ingilis dilində qarşılığı öz əksini tapıb.

Lüğətin fərqləndirici cəhətlərindən biri də odur ki, burada maliyyə sahəsini xarakterizə edən söz və ifadələrlə yanaşı, həm də işgüzar məktublar, şikayətlər və ərizələr kimi rəsmi sənədlərin tərtibi zamanı istifadə olunan terminlərə də geniş yer verilib.

Yenicə çapdan çıxmış lüğət Maliyyə Tədris Mərkəzinin təşəbbüsü ilə nəşr olunan ilk tədris materialıdır. Mərkəzin vəzifələrinin yerinə yetirilməsi məqsədilə gələcəkdə də aktual mövzuları əhatə edən belə nəşrlərin dərc olunması nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

*Jurnalistin qeydləri*

# Meşələrimiz – yaşıl evlərimiz

***Yayın isti günlərindən qaçıb günlərlə, bəzənsə aylarla çadırlarımızı qurub başı göylərə ucalan qollu-budaqlı sıx ağacların kölgəsinə sığındığımız meşələrimizi həm də hər birimizin yaşıl evləri hesab etmək olar. Təbiətimizin yaşıl ciyəri, oksigen mənbəyi olan meşələrimizdən söhbət düşəndə xəyalən 1990-cı – muxtar respublikamızın blokadaya salındığı ilk illərə qayıdır, hər dəfə də özümüzdən asılı olmayan səbəblər üzündən təbiətimizə vurduğumuz zərbənin təəssüfdolu acı xatirələrini yaşamalı oluruq. Elektrik enerjisinin, təbii qazın kəsildiyi o illərdə enerji mənbəyi kimi baxdığımız meşələrimiz arxamızda dağ kimi dayandı.***



Ümid yeri, ata ocağı bilib üz tutduğumuz meşələrimizdən əliboş qayıtmadıq. Bəzən təbiətin özünün, bəzənsə bizim əllərimizlə yaratdığımız təbii sərvətimiz o ağır illərin sərt qışlarında evlərimizdəki körpələrimizi, xəstələrimizi soyuqdan donmaqdan xilas etdi, yeməyimizi "bişirdi", çayımızı "qaynatdı". Düşmənin əzmimizə mənəvi zərbə endirmək məqsədilə tuşladığı "baltanın" qarşısına meşələrimiz "sinəsini verdi". Özünün məhv olmasını naxçıvanlıların məğlub olmasından üstün bildi. Çünki belə bir deyim var, insan olmayan yerdə təbiət "yetim qalar". Bu yerin insanlarının yaşaması sabah meşələrin bərpası, yüzlərlə hektar yeni meşə örtüyünün yaradılması demək idi və belə də oldu...

Həmin çətin illəri naxçıvanlılarla birgə yaşayan ümummilli liderimiz Heydər Əliyev hər biri bir dədəbaba yadigarı olan və əlacsızlıqdan kəsilən ağacların yerində yaranan görüntünü "təbiət qəbiristanlığı" adlandırıb və təbiətə dəyən bu ziyanın tezliklə aradan qaldırılması üçün tövsiyələr verib, bu yerin insanlarını ağac əkib bağ salmağa dəvət etmişdi. Onun 1993-cü il aprelin 2-də qəbul etdiyi tarixi qərarla muxtar respublika ərazisində başlanan yaşıllaşdırma tədbirləri bu gün bütün ölkə ərazisində davam etdirilir. Respublikamızda bu işlərin planlı aparılması üçün 2003-cü il fevralın 18-də "Azərbaycan Respublikası meşələrinin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" qəbul edilmiş və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında bu sahədə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı dövlət proqramlarına, "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, yeni meşə massivlərinin, yaşıllıq zolaqlarının və meyvə bağlarının salınması sahəsində tədbirlər bu gün də ardıcıllıqla davam etdirilir.

Meşələrin əhəmiyyəti, muxtar respublikada bu sahədə görülən işlər barədə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İstehsalın təşkili, planlaşdırılması və geologiya şöbəsinin müdiri Mayis Əliyevdən aldığımız məlumatda bildirilir: – Təkrarolunmaz və orijinal komponent olan meşələrin Yer kürəsinin "təbii istehsalat müəssisəsi" adlandırılması onun təbiətdəki rolunu tam əks etdirir. Meşələr dağlıq rayonlarda torpaq sürüşməsi və dağ uçqunlarının qarşısını alır. Bu yaşıl sərvətimiz fitonsid xüsusiyyətinə malik olub, zərərli mikroorqanizmləri məhv edir. Meşələrimiz buxarlanmanı da zəiflədir, qrunt sularının səviyyəsini endirir. Bunlarla yanaşı, bu yaşıl örtüyün təbiətdə ən böyük rolu hər hektarın il ərzində 10-20 ton karbon qazını udaraq əvəzində oksigen buraxmasıdır. 1 hektar meşə sahəsi hər saatda 8 kiloqram karbon qazını udur, bu da saatda 200 nəfərin nəfəsi ilə havaya buraxılan karbon qazının həcminə bərabərdir. Meşələr, həmçinin torpaqların münbitliyinin qorunması, eroziyanın, şoranlaşmanın, səhralaşmanın qarşısının alınması, su və atmosfer mühitində balansın tənzimlənməsi, canlıların zərərli təsirlərdən qorunması, sanitar funksiyaları daşımaqla sanki canlıların yaşam təminatçılarıdır.

Muxtar respublikamızda iqtisadiyyatın əsasını kənd təsərrüfatı təşkil etdiyi üçün xüsusilə torpaqların münbitliyinin bərpa olunmasında yaşıllaşdırma tədbirlərindən geniş istifadə edilir. Yaşıllıq sahəsi seçilərkən, əsasən, kənd təsərrüfatı əkinləri üçün yararsız sahələr götürülür ki, bu da ekoloji tarazlıqla bərabər, iqtisadi səmərəliliyin əldə olunmasına da şərait yaradır. Külək və su eroziyasının qarşısının alınması istiqamətində hər ilin yaz və payız fəsillərində torpaq, iqlim və hidromühitin fiziki-kimyəvi xüsusiyyətləri nəzərə alınmaqla sahələrdə tarlaqoruyucu, sahilbərkidici işlər aparılır, eroziya və sürüşməyə meyilli ərazilərdə meşə massivləri və meyvə bağları salınır. Son illər ərzində Naxçıvançay, Gilançay, Əlincəçay vadilərində, xüsusi mühafizə olunan təbiət ərazilərində, Darıdağda, "İşgəsu" massivində, Əshabi-Kəhf ziyarətgahına gedən yolun sağ və sol hissələrində, Didivar kəndindəki mövcud təpələrdə terras üsulu ilə, Ziyarətgah, Vəlidağ, Duzdağ Fizioterapiya Mərkəzi ətrafında, Naxçıvan-Sədərək, Naxçıvan-Şahbuz-Batabat və Naxçıvan-Culfa magistral avtomobil yollarının sağ və sol hissələrində, Arpaçay sol sahil kanalının aşağı sahillərində, Dəmirçi kəndinin yuxarı hissələrində yaşıllıq və meşə meliorativ tədbirləri aparılıb. Bundan əlavə, Naxçıvan şəhərinin və muxtar respublikanın mövcud sututarlarının, çay massivlərinin və su kanallarının ətrafında, xüsusi mühafizə olunan ərazilər şəbəkəsində 17 min hektardan çox sahədə yaşıllıqlar, meşə massivləri, meyvə bağları salınıb.

Ən qiymətli sərvət və ekoloji problemlərin aradan qaldırılmasında əsas təbii vasitə olan meşələrimizin mühafizəsi, artırılması məqsədilə görülən işlər öz bəhrəsini verməkdədir. Təbii meşə ehtiyatı az olan və 1990-cı illərdə insanların enerji ehtiyatı kimi baxdığı meşələrimizin son 25 ildə ümumi sahəsi 0,6 faizdən 14 faizə qədər artmışdır. Qeyd edək ki, muxtar respublikada adambaşına düşən yaşıllıq sahələrinin həcmi 0,012 hektardan 0,21 hektara qədər yüksəlmişdir. Müqayisə üçün bildirək ki, 1995-ci ildə bu göstərici yalnız 1 faiz təşkil edirdi. Kəskin kontinental iqlim şəraiti olan regionumuzda meşə ehtiyatlarının bu qədər artması göstərilən qayğının və düzgün ekoloji tədbirlərin nəticəsidir.

Meşə örtüyü bütün canlılar, xüsusilə də insanlar üçün çox gərəklidir. Elə Həzrəti Məhəmməd Peyğəmbərin "Görsəniz, qiyamət qopur, yenə əlinizdəki fidanı əkin" kəlamı da yaşıllıqların, meşələrin faydasını ifadə edir.

Yeni meşəliklər salınan muxtar respublikamızda yaşı yüzilliklərə, qərinələrə söykənən Biçənək, Bist, Tillək, Güznüt, Payız, Xal-xal, Rüstəm, Pircüvar və sair kimi təbii və mədəni meşələrimizdən də bəhs etmək yerinə düşər. Çünki hər birimizin evlərimizdəki ahıl yaşlılarımız kimi, yaşıl evlərimizin də "qocaman sakinlərinin" bu gün qayğıya, qorunmağa daha çox ehtiyacı var. Bu meşələrdən birinin – Güznüt meşəsinin gözətçisi Əbdüləli Məmmədovla söhbətimiz zamanı o, çox maraqlı məqamlara toxundu: – Uzun illərdir ki, meşəbəyi işləyirəm. Bəzən düşünürük ki, meşələr tək yayda istidən qorunmaq, dincəlmək üçündür. Amma belə deyil. İlin bütün fəsillərində bura gələnlər var: qonaqlar, turistlər, rəsm çəkənlər, xəstələr… Çoxillik müşahidələrimə əsasən deyə bilərəm ki, burada müxtəlifxarakterli insanlarla qarşılaşmışam. Bu insanlar arasında təbiəti göz bəbəyi kimi qoruyanlara da, ona qənim kəsilənlərə də rast gəlmişəm. Əlbəttə, meşənin həmişə təmiz saxlanmasına çalışmışam, bunu buraya gələnlərin də diqqətinə çatdırmışam. İndi bütün meşələrə tullantı qutuları qoyulub, üzərinə də "təmizlik qutusu" yazılıb. Bu sözlər insanları meşəni təmiz saxlamağa "çağırır". İstirahətə gələnlərə həmişə deyirəm ki, meşələrimizi də evlərimiz kimi təmiz saxlamalı, onlara qayğı ilə yanaşmalıyıq. Əgər mədəni istirahət üçün təbiətə üz tutub günlərlə burada vaxtınızı keçirirsinizsə, deməli, meşələrimiz də sizin eviniz kimi doğma olmalıdır.

Meşə gözətçisinin də fikirlərini dinlədikdən sonra belə qənaətə gəlmək olar ki, meşələrimiz də digər təbii sərvətlərimiz kimi insanların yaşayış tərzinə birbaşa nüfuz edir. Təbiət nə qədər zəngin olarsa, insanın özünü də bir o qədər oxşayar, sağlamlığına da bir o qədər müsbət təsir göstərər. Belə isə fərqli rəftarımızdan asılı olmayaraq, hər kəsə qucağını səxavətlə açan meşələrimiz, həqiqətən, bizim yaşıl evlərimizdir. Xoş günlərimizlə yanaşı, dar günlərimizdə də üz tutub çətinliklərimizi onların sayəsində aşdığımız meşələrimizə həmişə məhəbbətlə, qayğı ilə yanaşarıqsa, zənginləşdirib, qoruyub, səmərəli istifadə edəriksə, ana təbiətimizin qucağındakı yaşıl evlərimizin qapıları da üzümüzə daim açıq olar.

✍ **Mətanət MƏMMƏDOVA**

## Aviabiletləri artıq onlayn əldə etmək mümkündür

*"Azərbaycan Hava Yolları" (AZAL) milli aviadaşıyıcısının saytında Bakı-Naxçıvan və Naxçıvan-Bakı istiqamətində 2018-ci il 20 iyun tarixdən uçan reyslərə aviabiletləri onlayn əldə etmək mümkündür.*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamına əsasən bu istiqamətdə aviabiletin alınması üçün əvvəllər aviaşirkətin rəsmi kassalarına sərnişinin şəxsiyyət vəsiqəsinin əsli və ya pasportu təqdim olunmalı idi. İdarələrarası razılaşmalara əsasən bu məsələ artıq öz uğurlu həllini tapıb.

Xatırladaq ki, respublika daxili reyslərə aviabiletlərin qiyməti Tarif Şurası tərəfindən tənzimlənir və hazırda Bakı-Naxçıvan və Naxçıvan-Bakı istiqamətində aviabiletin qiyməti Azərbaycan vətəndaşları və vətəndaşlığı olmayan şəxslər üçün 50, xarici vətəndaşlar üçün isə 70 manat təşkil edir.

*www.azal.az* saytında həmin istiqamətə aviabiletin alınması prosesində sərnişinin vətəndaşlığını qeyd etməsi üçün əlavə xana əks olunacaq.

Aviabiletlər yalnız ekonom sinif tarifi üzrə təqdim olunur. Aviabiletin qiymətinə 23 kiloqramadək baqajın və 10 kiloqramadək əl yükünün (55x40x23 santimetrədək ölçülərdə) pulsuz daşınması daxildir. Bu qaydalar həm onlayn, həm də aviakassalarda alınan aviabiletlərə şamil olunur.

Nazirlər Kabinetinin qərarına əsasən müvafiq endirimlərin şamil olunduğu və əlavə təsdiqləyici sənədlərin təqdim edilməsi tələb olunan xüsusi kateqoriyalı sərnişinlər üçün aviabiletlər yalnız aviaşirkətin rəsmi kassalarında, həmçinin Bakı və Naxçıvan hava limanlarında rəsmiləşdirilir.

Naxçıvan-Bakı və Bakı-Naxçıvan istiqamətində aviabiletləri uçuşa ən azı 48 saat qalmış onlayn almaq olar.

Həmçinin aviaşirkətin qaydalarına əsasən aviabilet üçün ödəniş edildiyi plastik kartın sahibi müstəqil şəkildə və ya qrupun tərkibində səyahət etdiyi təqdirdə aviabiletləri onlayn əldə etmək mümkündür. Kartın həqiqiliyi və onun sərnişinin pasportuna uyğunluğu hava limanında qeydiyyat agentləri tərəfindən mütləq qaydada yoxlanılacaq.

Bakı və Naxçıvan arasında reyslər gündə bir neçə dəfə (yüklənmə və mövsümdən asılı olaraq) həyata keçirilir. Aviaşirkətin saytındakı "Məlumat" bölməsində uçuş cədvəli ilə ətraflı tanış olmaq mümkündür. Bakıdan uçuşlar Heydər Əliyev Beynəlxalq Aeroportunun ikinci terminalının cənub qanadından həyata keçirilir, Naxçıvandan uçuşlar isə Naxçıvan Beynəlxalq Hava Limanın hər iki terminalından həyata keçirilir.

## Hava proqnozu elektron qaydada çatdırılacaq

***Muxtar respublikada hava məlumatları və proqnozlar artıq avtomatlaşdırılmış üsulla elektron qaydada hazırlanacaq. Bunun üçün yerlərdə müasir texnologiyaların quraşdırılmasına başlanılıb. Yeni avadanlıq vasitəsilə 7 parametr üzrə məlumatlar veriləcək.***

Meteoroloji məlumatların kənd təsərrüfatı, fövqəladə hallar, meşə təsərrüfatı və digər sahələrdə çox böyük əhəmiyyəti var. Bu günə qədər məlumatlar ənənəvi üsullarla ictimaiyyətə və təşkilatlara çatdırılırdısa, bundan sonra muxtar respublikada fəaliyyət göstərən meteoroloji stansiyalardan avtomatlaşdırılmış şəkildə ötürüləcək.

Avtomatlaşdırılmış meteostansiyalar Finlandiyanın "Vaysala" şirkətinin istehsalıdır. Qurğu vasitəsilə hava haqqında məlumatlar birbaşa internetə ötürüləcək. Daim yenilənən məlumatları veb serverdən izləmək mümkündür.

Avtomat meteostansiyaları ilk olaraq Culfa şəhərində quraşdırılıb. Naxçıvan şəhərində isə bu istiqamətdə iş davam etdirilir. Qurğular yaxın zamanda muxtar respublikanın rayonlarındakı digər stansiyalarda da quraşdırılacaq.

**Xəbərlər şöbəsi**

## Növbəti seminar keçirilib



Naxçıvan Regional Peşə Tədris Mərkəzində işəgötürənlər və kadr məsələləri üzrə mütəxəssislərin iştirakı ilə Əmək müqaviləsi bildirişinin formaları və onun elektron informasiya sisteminə daxil edilməsi qaydalarına dair növbəti seminar keçirilib.

Seminarda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin əməkdaşları tərəfindən işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsi ilə bağlı əmək müqaviləsinin bağlanılmasının, ona dəyişiklik edilməsinin və ya xitam verilməsinə dair əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi barədə ətraflı məlumat verilib.

Qeyd edək ki, elektron informasiya sisteminin tətbiqinə başlanıldıqdan sonra muxtar respublikanın şəhər və rayonlarında 639 müəssisənin 665 nümayəndəsinin iştirakı ilə, ümumilikdə, 28 seminar keçirilib. Maarifləndirici tədbirlərin davamı olaraq, iyunun 5-dən Naxçıvan şəhərində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin iştirakı ilə keçirilən növbəti seminar iyunun 7-dək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Qasımov Anar Seyfəddin oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, "Qoçüstü" məhəlləsi bina 1, mənzil 10-da yaşayan Niftəliyev Elmir Vilayət oğlunun adına olan 5260 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 416